QANUN № 07 (381), 2026, s. 31-36

**Bəşirli Orxan Hafiz oğlu,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının doktorantı, Hüquq və İnsan Haqları İnstitutunun İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin təlimçi-eksperti
Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Hüseyn Cavid prospekti, 125, AZ 1073
E-mail: bashirli.orkhan@gmail.com

**UOT 341.96**
**DOI: https://doi.org/10.30546/2218-9130.007.2026.9098**

# BEYNƏLXALQ ARBİTRAJ AZƏRBAYCAN RESPUBLİKASI VƏ XARİCİ İNVESTORLAR ARASINDA İNVESTİSİYA FƏALİYYƏTİ İLƏ ƏLAQƏDAR MÜBAHİSƏLƏRİN HƏLLİ ÜSULU KİMİ

***Açar sözlər:*** *beynəlxalq arbitraj, investisiyalar, xarici investor, investor-dövlət mübahisəsi, ICSID.*

***Ключевые слова:*** *международный арбитраж, инвестиции, иностранный инвестор, спор между инвестором и государством, ICSID.*

***Keywords:*** *international arbitration, investment, foreign investor, investor-state dispute, ICSID.*

## Giriş

Xarici investisiyaların hər bir ölkənin iqtisadiyyatına və biznes mühitinə verdiyi töhfələr mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda da xarici investisiyaların ölkə iqtisadiyyatındakı, xüsusən neft-qaz sektoru və iqtisadiyyatın şaxələndirilməsindəki mühüm rolu danılmazdır. Bu baxımdan, xarici investisiyaların ölkəyə cəlb edilməsi üçün əlverişli hüquqi və iqtisadi mühitin mövcud olmasının zəruriliyini nəzərə alsaq, dövlət və xarici investorlar arasında neytral, məcburi və səmərəli mübahisə həlli üsuluna ehtiyac vardır.

Xarici investisiyanın inkişaf etdirilməsi və ölkəyə xarici investorların cəlb edilməsi üçün ölkədə siyasi və iqtisadi sabitliyin, o cümlədən hüquqi baxımdan münbit şəraitin mövcud olması zəruridir [5]. Bu baxımdan, son illərdə ölkədə mövcud olan siyasi sabitlik, iqtisadi inkişaf tendensiyaları və həyata keçirilən hüquqi yeniliklər dövlət siyasətinin bir hissəsi kimi ölkə iqtisadiyyatına daha çox xarici investisiya cəlb edilməsinə yönəlmişdir.

Bu münasibətlə Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda birbaşa xarici investisiyaların sürətli inkişafın əsas aparıcı qüvvələrindən biri olması, ölkədə dayanıqlı yeni iş yerləri yaratması və yüksəkkeyfiyyətli insan kapitalı formalaşdıra bilməsi dövlət səviyyəsində qəbul edilmişdir [2].

İnvestisiya fəaliyyəti ilə əlaqədar dövlət və xarici investor arasında yarana biləcək mübahisələrin səmərəli və neytral şəkildə həll edilməsi

hər bir investor üçün prioritet məsələlərdəndir. Bu tip mübahisələrin Azərbaycan Respublikasında ölkədaxili həlli üsulları kimi tərəflər arasında danışıqlar və qarşılıqlı razılaşma, eləcə də inzibati qaydada və yerli məhkəmələr ("Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu nəzərə alınmaqla) vasitəsilə həlletmə üsulları mövcuddur. Bunlarla yanaşı, bu tip mübahisələrin həlli üsulu kimi xarici investorların etibarlı forumlar kimi üz tutduğu beynəlxalq arbitraj mexanizmləri də xüsusi rola malikdir.

Mübahisələrin həlli üsulları kimi bir tərəfdən dövlətin yerli məhkəmə sisteminin hüquqi sistemin aydınlığı, milli qanunların tətbiqi, məhkəmə qərarlarının məcburi icra mexanizmlərinin olması, hakimlərin peşəkar ixtisaslaşması kimi üstünlükləri ilə yanaşı, məhkəmə proseslərinin uzun müddət davam etməsi və nəticə etibarilə sahibkarların və investorların işini ləngitməsi kimi mənfi cəhətləri də vardır. Digər tərəfdən, yerli məhkəmələrin yurisdiksiyasına alternativ olaraq beynəlxalq arbitraj müvafiq beynəlxalq standartlar və konvensiyalar əsasında fəaliyyət göstərən, neytral qərar qəbulunu təmin edən, məlumatların məxfiliyini qoruyan və tərəflərə arbitr seçimi baxımından müstəqillik verən effektiv mübahisə həlli mexanizmi kimi çıxış edir.

**İnvestor–dövlət mübahisələrində beynəlxalq arbitrajın rolu**

*Ümumi xarakteristika*

Yuxarıda da qeyd edildiyi kimi, beynəlxalq arbitrajın dünya təcrübəsində investor-dövlət mübahisələrinin tərəflərin qarşılıqlı razılığı əsasında həll edilməsi prosesində mühüm rolu vardır. Beynəlxalq arbitrajı mübahisələrin digər həlli yollarından fərqləndirən əsas xüsusiyyətlərə alternativ, könüllü və daha çevik mexanizm olması, qərarlarının tərəflər üçün hüquqi cəhətdən məcburi xarakter daşıması, eləcə də mübahisə tərəflərinin arbitr təyin edə bilmək müstəqilliyi və sərbəstliyi aid edilə bilər.

Beynəlxalq arbitraj məhkəmələrinin fəaliyyəti BMT-nin Beynəlxalq ticarət hüququ üzrə Komissiyasının qəbul etdiyi Nümunəvi UNCITRAL Qanunu və digər normativ sənədlər əsasında tənzimlənir. Ümumilikdə isə beynəlxalq arbitraj prosesində işlərə baxılması beynəlxalq konvensiya və müqavilələrdə, tövsiyə xarakterli beynəlxalq aktlarda, adət normalarında və arbitraj sazişlərində müəyyən edilən prosessual formatda həyata keçirilir [6].

İnvestor–dövlət mübahisələrinin arbitraj yolu ilə həllindən danışarkən, hər şeydən əvvəl "kommersiya" və "investisiya" arbitrajını bir-birindən fərqləndirmək faydalı olardı [7]. İnvestisiya (ingiliscəsi *"investment treaty arbitration"* olan *"investisiya sazişi arbitrajı"* da adlanır) və kommersiya arbitrajı öz-özlüyündə tətbiq olunan maddi hüquqlarına görə fərqlənir. Kommersiya arbitrajı adətən xüsusi hüquqa ("private law"), özəl müqavilələrə və tərəflərə vurğu ilə xarakterizə edilir, hətta dövlətlər bu prosesdə iştirak etdikdə belə, onların xüsusi hüquq çərçivəsində iştirakı başa düşülür. Bunun əksinə, investisiya arbitrajında maddi hüquq kimi xüsusi hüquq yox, beynəlxalq ümumi hüquq ("public international law"), özəl müqavilələr əvəzinə isə dövlətin birbaşa tərəf olduğu sazişlər çıxış edir və burada dövlət beynəlxalq hüququn müstəqil suveren subyekti kimi və tənzimləyici rolda iştirak edir [11].

Qeyd edilənləri ümumiləşdirsək, kommersiya arbitrajı biznes təsisatları (şirkətlər) arasında olan müqavilə mübahisələrinə baxdığı halda, investisiya arbitrajı bir tərəfi xarici investor (hüquqi şəxs), digər tərəfi investisiya qəbul edən dövlət olan investisiya sazişindən doğan mübahisələrlə məşğul olur. Beləliklə, investisiya arbitrajının fəaliyyətini ikitərəfli investisiya sazişləri ("bilateral investment treaties"), ICSID Konvensiyası [8], Enerji Xartiyası Sazişi [10], Şimali Amerika Azad Ticarət Müqaviləsi [12] və bu qəbildən olan digər beynəlxalq ümumi hüquq aktları tənzimləyir. Kommersiya arbitrajının fəaliyyətində isə əsas rol oynayan beynəlxalq hüquqi akt kimi xarici arbitraj qərarlarının tanın-

ması və icrasını tənzimləyən Nyu-York Konvensiyası [9] çıxış edir.

*Əsas arbitraj forumları və qaydaları*

Beynəlxalq praktikada xarici investorla dövlət arasında yaranan mübahisənin həlli üzrə fəaliyyət göstərən arbitraj mexanizmləri kimi çıxış edən bir sıra forumlar mövcuddur. Bunların içərisində əsas institut kimi çıxış edən Dünya Bankı Qrupunun strukturunda fəaliyyət göstərən İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz ("ICSID – International Centre for Settlement of Investment Disputes") və alternativ institutional forumlar kimi Beynəlxalq Ticarət Palatası ("ICC – International Chamber of Commerce") yanında Beynəlxalq Arbitraj Məhkəməsi, London Beynəlxalq Arbitraj Məhkəməsi ("LCIA – London Court of International Arbitration"), Stokholm Ticarət Palatası Arbitraj İnstitutu ("SCC Arbitration Institute"), Daimi Arbitraj Məhkəməsi ("PCA – Permanent Court of Arbitration") və bir sıra digər regional və beynəlxalq forumlar sadalana bilər. Eyni zamanda, bu bölmənin ümumi xarakteristika hissəsində də adıçəkilən və *"ad hoc"* icraatlar üçün tənzimləyici rola malik Beynəlxalq Ticarət Hüququna dair BMT Komissiyasının Nümunəvi Qaydaları ("UNCITRAL Model Law") qeyd oluna bilər.

**Azərbaycan Respublikasının investisiya arbitrajı üzrə müqavilə (saziş) əsaslı beynəlxalq hüquqi çərçivəsi və daxili qanunvericiliyi**

Azərbaycan Respublikasında xarici investorlar dövlətlə olan mübahisələrinin alternativ həlli metodu kimi adətən yuxarıda da adları sadalanan ICSID, ICC, LCIA, SCC kimi arbitraj institutlarından istifadə edirlər. Beynəlxalq hüquqi öhdəlikləri baxımından, Azərbaycan Respublikası 18 oktyabr 1992-ci ildən ICSID Konvensiyası, 17 dekabr 1994-cü ildən energetika sahəsində olan mübahisələrlə əlaqədar Enerji Xartiyası Sazişi və 29 fevral 2000-ci ildən Nyu-York Konvensiyası kimi çoxtərəfli sazişlərin iştirakçısıdır. Bununla yanaşı, müxtəlif dövrlərdə dövlətin indiyədək 40-dan çox dövlətlə imzaladığı çoxsaylı ikitərəfli investisiya sazişləri mövcuddur. Bu dövlətlərə Amerika Birləşmiş Ştatları (1994-cü ildə), Birləşmiş Krallıq (1996-cı ildə), Türkiyə (1994-cü ildə), İran (1996-cı ildə) və digərləri nümunə göstərilə bilər.

Qeyd edilən beynəlxalq sənədlərdən irəli gələn öhdəliklər xarici investorlara öz mübahisələrini alternativ və daha asan üsulla həll etməklə yanaşı, həmçinin beynəlxalq arbitraj qərarlarının Azərbaycanda tanınması və icrasını da daha asan edir. Azərbaycan Respublikasında investisiya fəaliyyətinin hüquqi və iqtisadi əsaslarını müəyyən edən, investorların hüquqlarının və qanuni maraqlarının qorunmasına təminat verən 22 iyun 2022-ci il tarixli "İnvestisiya fəaliyyəti haqqında" Qanunun "mübahisələrin həlli"ni tənzimləyən 15.2-ci maddəsi tərəflər arasında hər hansı digər razılıq olmadığı halda və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində nəzərdə tutulan hüquqi müdafiə vasitələri bitdikdən sonra xarici investor və dövlət arasında investisiya fəaliyyəti ilə əlaqədar mübahisənin beynəlxalq arbitraja təqdim edilməsi üçün əsas hüquqi baza kimi çıxış edir [4].

Eyni zamanda, adıçəkilən Qanunun 15.3-cü maddəsində qeyd olunur ki, dövlətin xarici dövlətlə imzaladığı ikitərəfli beynəlxalq sazişlərdə mübahisələrin həlli ilə bağlı fərqli qaydalar nəzərdə tutulursa, bu halda beynəlxalq sazişin müəyyən etdiyi qaydalar tətbiq edilir. Bunun davamı olaraq, Qanunun 15.4-cü maddəsi beynəlxalq arbitraj qərarlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və Mülki Prosessual Məcəlləyə uyğun olaraq tanınması və icrasına təminat verir.

Qeyd edilənlərlə yanaşı, son illərdə Azərbaycan Respublikasında ölkəyə investisiya qoymuş xarici investorların iqtisadi və mülki hüquqlarının səmərəli müdafiəsi istiqamətində də müəyyən hüquqi addımlar atılmış, yeni mexanizmlər ya-

radılmışdır. Bu hüquqi addımlara və yaradılan mexanizmlərə 26 dekabr 2023-cü il tarixli "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu [1] və mübahisələrin alternativ həlli üsulu kimi milli arbitraj institutlarının [3] yaradılması misal göstərilə bilər.

**Nəticə**

Ölkəyə qoyulan xarici investisiyaların ölkə iqtisadiyyatı və biznes mühitinə gətirdiyi müsbət təsir və faydaları nəzərə alaraq, dövlətlər iqtisadiyyatın inkişaf etdirilməsi və şaxələndirilməsi məqsədilə yerli səviyyədə münbit siyasi, hüquqi və iqtisadi şərait yaratmaq istiqamətində addımlar atır. Xüsusən, hüquqi təminat baxımdan uyğun şəraitin və müvafiq qanunvericiliyin olması xarici investisiya qoyuluşunda yarana biləcək mübahisələrin neytral, məcburi və səmərəli həll edilməsi üçün zəmin yaradır.

Azərbaycan Respublikasında da son dövrlərdə qanunvericiliyin təkmilləşdirilməsi və hüquqi baxımdan əlverişli şəraitin yaradılması üçün müəyyən tədbirlər həyata keçirilmişdir. Bu kontekstdə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda birbaşa xarici investisiyaların sürətli inkişafın əsas aparıcı qüvvələrindən biri olması, ölkədə dayanıqlı yeni iş yerləri yaratması və yüksəkkeyfiyyətli insan kapitalı formalaşdıra bilməsinin dövlət səviyyəsində qəbul edilməsi, investisiya fəaliyyətinin hüquqi və iqtisadi əsaslarını müəyyən edən, investorların hüquqlarının və qanuni maraqlarının qorunmasına təminat verən 22 iyun 2022-ci il tarixli "İnvestisiya fəaliyyəti haqqında" yeni Qanunun və 26 dekabr 2023-cü il tarixli "Arbitraj haqqında" Qanunun qəbul edilməsi, eləcə də mübahisələrin alternativ həlli üsulu kimi milli arbitraj institutlarının yaradılması qeyd edilə bilər.

Azərbaycan Respublikasında investor–dövlət mübahisələrinin ölkədaxili həlli üsulları kimi tərəflər arasında danışıqlar və qarşılıqlı razılaşma, eləcə də inzibati qaydada və yerli məhkəmələr vasitəsilə həlletmə üsullarının mövcudluğu ilə bərabər, xarici investorların etibarlı forum kimi müraciət etdikləri beynəlxalq arbitraj mexanizmləri də xüsusi rol oynayır.

Bir tərəfi xarici investor, digər tərəfi isə investisiya qəbul edən dövlət olan investisiya sazişindən yaranan mübahisələrlə məşğul olan investisiya arbitrajının hüquqi əsaslarını ikitərəfli investisiya sazişləri, ICSID Konvensiyası, Enerji Xartiyası Sazişi, Şimali Amerika Azad Ticarət Müqaviləsi və bu qəbildən olan digər beynəlxalq müqavilələr tənzimləyir. Bu mübahisələrin həlli üzrə fəaliyyət göstərən forumlara (təşkilatlara) İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz, Beynəlxalq Ticarət Palatası yanında Beynəlxalq Arbitraj Məhkəməsi, London Beynəlxalq Arbitraj Məhkəməsi, Stokholm Ticarət Palatası Arbitraj İnstitutu, Daimi Arbitraj Məhkəməsi və bir sıra digər regional və beynəlxalq forumlar misal göstərilə bilər.

Beynəlxalq arbitrajın bu məqalədə qeyd edilən müsbət cəhətlərini və xüsusiyyətlərini nəzərə alaraq, onun Azərbaycan Respublikası və xarici investorlar arasında investisiya fəaliyyəti ilə əlaqədar mübahisələrin həllində oynadığı səmərəli və etibarlı rolu bir daha qeyd edə bilərik. Xüsusən, ölkənin milli hüququnun və müvafiq qanunvericilik aktlarının bu istiqamətdə tələb və meyarlara cavab verdiyini vurğulamaqda fayda vardır. Lakin, bunlarla yanaşı mövcud şəraitin daha da yaxşılaşdırılması və xarici investorlara daha əlverişli hüquqi mühitin təmin edilməsi məqsədilə dövlət tərəfindən mövcud investisiya arbitrajı çərçivəsinin effektivliyinin mütəmadi qiymətləndirilməsi, bu istiqamətdə şəffaflığın və çevikliyin təmin edilməsi üçün müasir tendensiyalara cavab verən siyasət tövsiyələrinin hazırlanması, o cümlədən ölkədə yerli arbitraj praktikası ilə bağlı məlumatlılığın artırılması məqsədəmüvafiq olardı.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. “Arbitraj haqqında” Azərbaycan Respublikasının 26 dekabr 2023-cü il tarixli 1077-VIQ nömrəli Qanunu. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/56210.
2. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 nömrəli Sərəncamı. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/50013.
3. Bakı Arbitraj Mərkəzi. [Elektron resurs]/URL: https://www.bakuarbitrationcentre.org/.
4. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 22 iyun 2022-ci il tarixli 551-VIQ nömrəli Qanunu. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/50048.
5. Quluzadə, T. Azərbaycanda beynəlxalq investisiya mühiti // Azərbaycan Vəkillər Kollegiyasının Elmi-Praktik Hüquq Jurnalı. – Bakı, 2025. – № 2 (37). – s. 37–53.
6. Mirkamal, V., Beynəlxalq Arbitraj Prosesi. Red.: Habil İsgəndərov. – Bakı, – 2011. – 448 s.
7. Böckstiegel, K.H., Commercial and Investment Arbitration: How Different are they Today? The Journal of London Court of International Arbitration (2012), Vol. 28, Number 4.
8. Convention of International Center for the Settlement of Investment Disputes (ICSID, 14 October 1966).
9. Convention on the Recognition and Enforcement of Foreign Arbitral Awards (New York, 10 June 1958).
10. Energy Charter Treaty (December 1994).
11. Roberts, A., Divergence Between Investment and Commercial Arbitration, “Proceedings of the Annual Meeting”, Vol. 106, Confronting Complexity (2012), p. 298, Cambridge University Press (on behalf of the American Society of International Law).
12. North American Free Trade Agreement (NAFTA, 1992) (terminated on 30 June 2020 and was replaced on 1 July 2020 by the United States – Mexico – Canada Agreement (USMCA).

**Баширли Орхан Хафиз оглу,**
аспирант кафедры частного международного права и европейского права
юридического факультета Бакинского государственного университета;
тренер-эксперт Института права и прав человека

## МЕЖДУНАРОДНЫЙ АРБИТРАЖ КАК МЕТОД УРЕГУЛИРОВАНИЯ СПОРОВ, СВЯЗАННЫХ С ИНВЕСТИЦИЯМИ, МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ИНОСТРАННЫМИ ИНВЕСТОРАМИ

### РЕЗЮМЕ

Цель данной статьи заключается в представлении возможных механизмов, определяющих роль международного арбитража в разрешении споров между инвесторами и государством. Одновременно в статье анализируются общие характеристики международного арбитража в разрешении инвестиционных споров, его позитивные аспекты, основные арбитражные правила и форумы, а также международные обязательства Азербайджанской Республики в этой области и национальная правовая база. В заключение статьи подводятся итоги и предлагаются меры по дальнейшему улучшению текущей ситуации и обеспечению более свободной и благоприятной правовой среды для иностранных инвесторов.

**Bashirli Orkhan Hafiz,**
Doctoral student, Department of Private International Law
and European Law, Faculty of Law, Baku State University;
Trainer-Expert of the Institute of Law and Human Rights

## INTERNATIONAL ARBITRATION AS AN INVESTMENT-RELATED DISPUTE SETTLEMENT METHOD BETWEEN THE REPUBLIC OF AZERBAIJAN AND FOREIGN INVESTORS

### SUMMARY

The purpose of this article is to present the possible mechanisms to the readers, touching upon the role of international arbitration in investor-state disputes. At the same time, the article analyzes the general characteristics of international arbitration in the resolution of investment disputes, its positive aspects, the main arbitration rules and forums, as well as the international obligations of the Republic of Azerbaijan in this area and the national legal framework. Finally, the conclusion of the article summarizes all these points by providing certain proposals for further improving the current situation and ensuring a freer and more favorable legal environment for foreign investors.

**Redaksiyaya daxilolma tarixi: 15.06.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 20.07.2026**
**Çapa qəbul olunma tarixi: 20.07.2026**